

Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# PAUZA

## Bu yazını fasilələrlə oxuyun, çünki mən onu fasilələrlə yazdım

**Bu yazını yazmamışdan öncə başqa bir ovqatdaydım. Necə deyərlər, hətta həmin yazının umacını ovub, əriştəsini də kəsmişdim. Amma Bakının son dəli küləkləri və qorabişirən ay olan avqustun 8-də havanın birdən-birə dəyişib buludların gözünü yumub damcılarını üstümüzə çiləməsi məni fikrimdən daşındırdı. Yəni mən öz-özümdə bu qənaətə gəldim ki, "hər anın öz hökmü var" deyimi çox dəqiq ifadə olunmuş fikirdi. Həqiqətən də bu günün reallığı hər anın öz hökmü! Səni nə gözləyir, səni kim vuracaq və harandan vuracaq kimi düşüncələrin içərisində özünü iynədən, sancaqdan keçirdiyin məqamda bir də görürsən ki, həyatını etibar etdiyin, sirrini bölüşdüyün xəncəri saplayıb kürəyinə. Və sən onda özündən asılı olmadan pıçıldayırsan:**

- Sirrini sirdaşa vermə, onun da sirdaşı var!..

Belə olan halda adi bir qığılcımın alova, tonqala çevrilməsi təbiidir. Mən sizə məşhur kəlamı xatırlatmaq üçün söyləmirəm bu fikri. Əgər xatırlamaq istəyirsinizsə, bilməyənlər varsa deyə bilərəm. Məşhur Oktyabr inqilabının ilhamçısı və rəhbəri Vladimir Ulyanov deyirdi ki, "qığılcımdan alov doğar". İndi həqiqətən mənim iç dünyamdakı yaşantılar həm alova çevrilir, həm də külə. Çox qəribədir ki, bu təzadın arasında əriyən də, sınan da, çiliklənən də ancaq ürəkdi, duyğulardı, hisslərdi. Nə etmək olar ki, onları qorumaq mənim gücümdə deyil. Çünki dərd çəkmək, kədərə güvənc yeri olmaq, hətta ağrını-acını öz ürək adlı sığınacağında qoruyub saxlamaq, yaşatmaq mənim hardasa ömrümün ifadəsinə, yaşamına, lap bir az da köntöy desəm, missiyama çevrilib. Ona görə də pambıq nəm çəkən kimi çəkirəm özümə ağrını-acını, dərdi-qəmi.

... Bilənlər bilir (təbii ki, burda söhbət dostlardan, məni daima oxuyanlardan gedir - Ə.M.), mən həyatım boyu özümü təklikdən, tənhalıqdan xilas etmək üçün içimə sığınmağa üstünlük vermişəm. Ona görə də içimlə etdiyim söhbətlər mənə hardasa laylanı xatırladıb. Və mən də o laylanın ruhuna uyğun olaraq özümü xəyallar dünyasında saymışam. Nəticədə də dizim yerdə, əlim də göydə qalıb.

Çünki xəyallar həmişə əriyib gedib, heç gerçəkləşəni olmayıbdı. Mən də bir bəndə kimi dizimi yerə qoyub, əlimi Tanrıya açmışam. İstəmişəm ki, heç olmasa xəyallarımın bir iynə boydasının gerçəkləşdirsin. Axı mən də onun bəndəsiyəm. Mənə də sevinci də, kədəri də, ağrı-acını da, dünyanın tamını dadıb, yükünü çəkmək missiyasını o verib?..

Bəli, bax elə düşündüyüm anların birində ağlımdan gəlib keçdi ki, sənə yazdığım son mesajı yaddaşımda təzələyib deyim ki:

**Telefonda**
**səsli mesaj qoymusan:**
**- Bağışlayın...**
**indi məşğulam...**
**bir az sonra**
**arayın!..**
**Anladım,**
**amma...**
**bir az sonra**
**yəqin ki,**
**mən olmayacam...**
**siz də bağışlayın,**
**elə sən də!..**
**Dedim ki,**
**yaddaşımda qalsın**
**və**
**bağlantın,**
**əgər olarsa,**
**ruhunla bağlansın!..**

***

İndi ruhumun kölgəsində oturub həmin o xəyal dediyim dünyanın küçələri ilə gəzib dolaşıram. Mənə tanış olanlar, mənim yaddaşımda ilişib qalanlar və bir də mənim özümün uydurduğum, yaratdığım nəsnələr həmin o dünyanın bu və ya digər guşəsini bəzəyir. Hətta sənin adına əkdiyim qızılgül kolunun üstündə bir bülbül də var. Mən onun cəh-cəhini də eşidirəm, dinləyirəm. Sanki mənim nələr düşündüyümü hiss edir, duyur. Ona görə də mənim fikirlərimi oxuyur, mənim istəklərimi nəğməyə çevirir. Mən bu qəribə mənzərənin içərisində həm bir az qürrələnirəm, həm də özüm özümün halıma acıyıram. Çünki xəyallarımda da səsimə səs vermisən... bu məqamda da əlimdən tutub özünlə haralarasa aparmırsan. Sanki yadlardan yad, qəriblərdən qəribəm. Ona görə də özümü bir az da fağır, zəif, hətta deyərdim lazımsız bir durumda da hiss edirəm. Görəsən niyə belə olur? Nədən hər şey müsbətə yox, mənfiyə, yüksəlişə yox, enişə doğru yuvarlanır?..

Bəli, bax elə bu sualların özü də xəyal dünyanın rəngarəngliyini bir az tündləşdirir. Və mən həmin o tünd rənglərin arasında işıq gəzirəm. Elə bir işıq ki, ordan boylananda həmin nurun sənin üstünə düşdüyünü görə bilim. Və elə səni gördüyüm həmin o işığın içərisində də içimdən gəlib keçənləri göy üzündən, yəni xəyallarımın dünyasından üzüaşağı pıçıldayım. Deyim ki:

**Bu bulud nə yaman hikkələnibdi,**
**Canının selini sıxır aşağı...**
**Elə bil göy üzü silkələnibdi -**
**Artıq saydığını yığır aşağı...**

**Dumanı "zər" tutub, çiskini cərgə,**
**Xamlayıb, kimsəni götürmür tərkə...**
**Mən heyran qalmışam seldəki ərkə -**
**Qopub o dağlardan axır aşağı...**

**Üzümü, gözümü yalayır yağış**
**Məni göy üzünə calayır yağış...**
**Bəlkə də mənumçün ağlayır, yağış -**
**Allahın gözü nəm baxır aşağı.**

**Nə qədər yerimdə çabalasam mən,**
**Gəlmir istəyimlə vallah, gücüm tən...**
**Bu anın içində havalansan, sən -**
**Qoyma göydə qalım, çağır aşağı!..**

***

Heç bir halda insan özünün içini dana bilmir. Nə olur-olsun, hətta dilin bu etirafdan qaçsa da gözlərin, sifət cizgilərin, hərəkətlərin bir Allah bəndəsi olaraq içini də büruzə verir. Hətta oxuduğuma, eşitdiyimə görə, insanların hobbiləri də, saç düzümləri də onları müəyyən məqamlarda tapılmasına, üzə çıxarılmasın kömək edir. Yeni aparılan axtarışlar, ekspertizalar bu və ya digər vasitələrdən də yararlanıb kimisə tapıb üzə çıxarırlar. Mən də nə vaxtsa hansısa bir əməlimə görə aranıb-axtarılsam, yəqin ki, yazı-pozumla tapacaqlar məni. Həmin sözlərin. fikirlərin arasında mənim kimliyimi aşkarlayıb məşhər ayağına çəkəcəklər.

Bilmirəm, sizlər həmin anı, yəni məşhər məqamını necə təsəvvür edirsiniz. Amma mən bunun həm çəkisini, həm də formasını artıq görməyə başlayıram. Elə bilirəm ki, axtaranlar hər sözümün, hər işarəmin damarında səndən nə isə üzə çıxaracaqlar. Onda mənim kimliyimi daha rahat bilib mənim də cəzamı daha dəqiq müəyyənləşdirəcəklər. Axı mən özüm etiraf etmişəm ki, mənim elə cəzalarım, günahlarım var ki... Onun cəzası durmadan, dayanmadan, nəfəs almadan sevməkdi... bütün Yer kürəsini sevgiyə bələməkdi.

O sevgiyə ki, onun şah damarı göy üzünə, kökü isə yerin ən dərin qatlarına işləyir. Mən də yerlə göyün arasında sənə ünvanladığım fikirləri, sözləri bir zərgər dəqiqliyi ilə misralamağa çalışıram. İstəyirəm ki, yalnışlığa yol verməyim. Axı sözlərin, misraların arasında mənimlə birlikdə Sən də varsan.

Elə bu düşüncəni bilgisayara diqtə edirdim ki, işıqforun qırmızı lampası yanıb sönən kimi mənim də təyziqim bir anlıq yerindən oynadı:

**Gör necə duman var, gör necə çən var,**
**Ruhumun oxşarı - gör neçə tən var?**
**Tay deyə bilmirəm, anam, Vətən var -**
**Görə bilmirəmsə mən necə deyim?!**

**Bulud da ağlayır, çən də kövrəlir**
**Saçım ovcundadı - dən də kövrəlir...**
**Ürəyim sinəndə - səndə kövrəlir -**
**Məni düşünürsən sən, necə deyim?!**

**Açıb pəncərəni damcıları say**
**Bəlkə yada düşər biz görüşən ay...**
**Nə vaxt yazacağam, deyəmmirəm tay -**
**Şeirin ən gözəlin ən, necə deyim?!**

**Qurduğum xəyalda tərdi çiçəklər**
**Özlərin çəmənə sərdi çiçəklər...**
**Bütün arıların dərdi çiçəklər -**
**Hamını şən edir, şən, necə deyim?!**

**Əbülfət ünvanlı bəndə olsam da**
**Özümdən daha çox səndə olsam da...**
**Meyilli torpağa, kəndə olsam da -**
**Ümid də bir dəndi, dən necə deyim?!**

***

Bəli, bu yazının əvvəlində həm hava durumunu, həm ovqatı, həm də xəyallarımı qatıb-qarışdırdım bir-birinə. Özü də bunu bilərəkdən etmədim, sadəcə belə alındı.

Lap dəqiq ifadə etsəm, söhbət anlayışdan, qarşılıqlı səmimiyyətdən, güvəndən getdiyi üçün mən çətirini yağış altında başı üzərində deyil, özüylə gəzdirən bir xəyalpərvər kimi çox qəribəlikləri keçirdim iç dünyamdan. O qəribəliyin ən incə nöqtəsi təbii ki, səninlə bağlı idi. Neyləyim ki, üzümü tutduğum hər yerdə, əlimi uzatdığım hər məkanda səndən başqa kimsəni görmürəm, heç görmək arzusunda da deyiləm. Bu qənaətimə görə, inciyənlər, lap məni qınayanlar olsa belə, fikrimdən dönən deyiləm. Çünki həyatımın qəhrəmanı sözümün, özümün güvəni Sənsən. Bu gerçəyin içində yorulduğun, usandığın, hətta məni görmək istəmədiyin anlar da mümkündür. Bunu normal, təbii qarşılayıram. Elə həmin o təbii qarşılama mərasimində də nə vaxtsa yazdığım misralar dilimin ucuna gəlir. Mən sənə yazmışdım ki:

**Məni salıb dildən, haldan**
**Şirin imiş xəyal baldan...**
**Ayırmadan xəyallardan -**
**Sən döndər özünə məni...**

**Bu sevgidə Məcnun yalan**
**Sənə mənəm bil ki, qalan!**
**Seç, hələ olmamış talan -**
**Sən öndər özünə məni...**

**Adınla birgə soy gəlir**
**Kimə yas, kimə toy gəlir...**
**Ölçülüb, boya-boy gəlir -**
**Sən, səngər özümə məni.**

**Qarışıbdı yolum, izim**
**Çapıq-çapıq olub dizim...**
**İstəməyə gəlmir üzüm -**
**Sən göndər özümə məni...**

**... Hər dəfə duyğularımı sözə çevirəndə elə bilirəm ki, bir az rahatlandım, bir az iç dünyamın yükünü vərəqlərə, indiki halda bilgisayarlara köçürdüm. Amma inanın ki, son sözü, son nöqtəni qoyandan sonra bircə an nəfəs ala bilirəm. O nəfəs sadəcə pauzadı. Yəni ani fasilədi. Sonra yenə hər şey sıfırdan başlayır. Zaman-zaman bunun səbəbini arayıb-axtarıb tapmağa çalışdım. Mükəmməl bir qərar olmasa da, amma artıq içimdə şübhələndiyim bir ünvan var. Bu ünvan da səninlə bağlıdır. Artıq hiss edirəm, hətta inanıram ki, bu yazıları da sən diqtə edirsən, bu yazılar da səndəndir... Sən diqtə edirsən, sən göndərirsən, sən pışıldayırsan, sən yazdırırsan... Mən səni yazıram, özümü yox! Hələ özümü yazmağın zamanını gözləməliyəm. Axı ən böyük həqiqət zamanın təsdiq etdiyidir! Biz o zamanın içindəyik. Ordan qəlib kimi çıxa bilsək, onda sevgimiz də ən böyük və danılmaz həqiqət olacaqdı.**